**AZƏRBAYCAN RESPUBLİKASI**

**MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

№ Q-04

Bakı şəhəri "24" yanvar 2014-cü il

# İcbari Sığorta Bürosuna ödənilməli olan iştirak haqqının və təminat depozitinin məbləğlərinin müəyyən edilməsi haqqında

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunun 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.3-cü və 3.1.4-cü bəndlərinin, həmçinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 14 may tarixli 649-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 04 iyul tarixli 937 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

1. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq üçün müraciət etmiş sığortaçının ödəməli olduğu iştirak haqqının məbləği 200.000 (iki yüz min) manat müəyyən edilsin.

2. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq istəyən sığortaçının Büroya birdəfəlik olaraq ödəməli olduğu təminat depozitinin məbləği müvafiq icbari sığorta növləri üzrə aşağıdakı kimi müəyyən edilsin:

2.1. Daşınmaz əmlakın icbari sığortası üzrə – 100.000 (yüz min) manat;

2.2. Daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 100.000 (yüz min) manat;

2.3. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat;

2.4. Sərnişinlərin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat;

2.5. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə – 100.000 (yüz min) manat.

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında 2011-ci il 14 oktyabr tarixli Q-11 nömrəli Kollegiya Qərarı ləğv edilsin.

4. Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**Kollegiyanın sədri,**

**Azərbaycan Respublikasının**

**Maliyyə naziri** **Samir Şərifov**